

Fevral ayının 5-də 33 yaşlı Derek Medina arvadını öldürdüyü üçün ömürlük həbs cəzası alıb.

AzNews.az Oxu.Az-a istinadən xəbər verir, kişi cinayəti törətdikdən dərhal sonra Facebookda "Nur içində yat Alonso" şərhini yazaraq arvadının meyitinin şəklini paylaşıb.

Məhkəmədə Medina sona qədər qətlin özünü müdafiə çərçivəsində törədildiyini iddia edirdi. O, Ceniferin onu mütəmadi olaraq döydüyünü, son gün isə bıçağa əl atdığını, bu səbəbdən də ona atəş açmağa məcbur qaldığını bildirib.

Amma hakim bu ifadələrə inanmayıb, belə ki, arvadının meyitinin şəklini paylaşan Medina ona bir daraq güllə atıb, halbuki, müdafiə üçün havaya açılan xəbərdarlıq atəşi də bəs edərdi.

Son sözündə Medina hər şeydə Barak Obamanı və korrupsiyanı günahlandırıb.

Medina, həmçinin "Ünsiyyət vasitəsilə Ailə problemlərini həll edərək nikahımı necə xilas etdim" kitabının müəllifi kimi də məşhurdur. Bu kitabı indi də amerikan internet-mağazalarında almaq olar.

Bu hadisədən sonra "Amazon" nəşriyyatına "Bu kitab düz hədəfə dəyib" kimi ifadələrin olduğu çoxsaylı istehzalı şərhlər gəlib.